"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqının Himayəçilər Şurasının 2015-ci il 25 dekabr tarixli iclasında təsdiq edilmişdir (Protokol № 06, Əlavə № 02).

Himayəçilər Şurasının sədri _____ A.S.Rəhmanov

"YAŞIL KART" BEYNƏLXALQ SIĞORTA SİSTEMİ ÇƏRÇİVƏSİNDƏ TƏLƏBLƏRİN TƏNZİMLƏNMƏSİ QAYDALARI

1-ci Fəsil
Giriş müddəaları

1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "İcbari sığortalar haqqında "Azərbaycan Respublikasının Qanununun 63-3.0.2-ci maddəsinə, avtonəqliyyat vasitələri sığortaçılarının Yaşıl Kart bürolarının beynəlxalq assosiasiyası, eyni zamanda Yaşıl Kart sisteminin idarəedici təşkilatı olan Bürolar Şurasının (bundan sonra – Bürolar Şurası) Daxili Reqlamentinə (bundan sonra – Daxili Reqlament), bildirişlərinə, qayda və təlimatlarına uyğun olaraq Azərbaycan Respublikasının və Yaşıl Kart sisteminə daxil olan digər ölkələrin ərazisində baş vermiş yol-nəqliyyat hadisələri nəticəsində vurulmuş zərərlərin əvəzinin ödənilməsi üzrə tələblərin İcbari Sığorta Bürosu (bundan sonra – Büro) və (və ya) Büronun Yaşıl Kart sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılarının reyestrinə daxil edilmiş sığortaçılar (bundan sonra - Yaşıl Kart sığortaçıları) tərəfindən tənzimlənməsi üzrə peşəkar fəaliyyət qaydalarını müəyyən edir.

1.2. Bu Qaydaların məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

1.2.1 Yaşıl Kart və ya Yaşıl Kart müqaviləsi – Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası və Bürolar Şurası tərəfindən qəbul edilmiş formada bağlanan, Bürolar Şurasının üzvü olan istənilən ölkədə aid olduğu avtonəqliyyat vasitəsinin istifadəsi ilə bağlı mülki məsuliyyətin icbari sığortasının mövcudluğunu təsdiq edən beynəlxalq sığorta müqaviləsi;

1.2.2 Yaşıl Kart müqavilələri üzrə tələblərin tənzimlənməsi (bundan sonra tələblərin tənzimlənməsi) – məsuliyyəti Yaşıl Kart sistemi çərçivəsində sığortalanmış nəqliyyat vasitəsi sahibinin səbəb olduğu yol-nəqliyyat hadisəsi nəticəsində vurulmuş zərər(lər)in əvəzinin ödənilməsi üzrə tələblərə baxılması və dəyən zərər(lər)in əvəzinin ödənilməsi;

1.2.3 tələblərin tənzimlənməsi üzrə nümayəndə – Yaşıl Kart müqavilələri üzrə tələblərin yol-nəqliyyat hadisəsinin baş verdiyi ölkənin ərazisində tənzimlənməsini həyata keçirmək üçün təyin edilmiş məsul şəxs (müxbir və agent);

1.2.4 müxbir – Yaşıl Kart müqavilələrini rəsmiləşdirən sığortaçı(lar) ilə əldə olunmuş razılaşmaya uyğun olaraq və yol-nəqliyyat hadisəsinin baş verdiyi ölkənin Yaşıl Kart Bürosu tərəfindən verilmiş səlahiyyətlər əsasında fəaliyyət göstərən tələblərin tənzimlənməsi üzrə nümayəndə. Müxbir tələblərin tənzimlənməsini hadisənin baş verdiyi ölkənin qanunvericiliyinə uyğun olaraq həyata keçirir;

1.2.5 agent – Büro tərəfindən təyin edilən və onun adından Azərbaycan Respublikasının ərazisində tələblərin tənzimlənməsini həyata keçirən Yaşıl Kart sığortaçısı;

1.2.6 tələblərin tənzimlənməsi xidməti – Yaşıl Kartlar üzrə tələblərin tənzimlənməsini həyata keçirən tələblərin tənzimlənməsi üzrə nümayəndənin struktur bölməsi, o cümlədən xüsusi bölməsi (filialı);

1.2.7 maraqların toqquşması – tələblərin tənzimlənməsi prosesində meydana gələn, tələblərin tənzimlənməsi üzrə nümayəndənin öz funksiyalarını vicdanla və ədalətliliklə icra etməsinə mane olan hal. Maraqların toqquşması, adətən, zərərçəkən şəxsin həyatı, sağlamlığı, əmlakı və ya mülki məsuliyyəti tələblərin tənzimlənməsini həyata keçirən nümayəndə tərəfindən sığortalandığı hallarda baş verir.

1.2.8 Tənzimləmə üzrə xərclər - tələblərin tənzimlənməsi zamanı yaranan xərclər (sığorta ödənişi, tələblərin tənzimlənməsi prosesində yarana biləcək digər xərclər – məhkəmə xərcləri, dəyən zərərin məbləğinin qiymətləndirilməsi xərcləri və s.);

1.2.9 Tənzimləməyə görə haqq – bir hadisə üzrə həyata keçirilmiş sığorta ödənişi məbləğinin 15%-i həcmində, lakin 200 avrodan az və 3500 avrodan çox olmayaraq

müəyyən edilən və Daxili Reqlamentin 5.5-ci maddəsinə uyğun olaraq tələb edilən haqq.

1.3. Bu Qaydalarda başqa cür nəzərdə tutulmadığı halda, istifadə olunan anlayışlar qüvvədə olan qanunvericilikdə və Büronun digər daxili sənədlərində nəzərdə tutulan mənaları ifadə edir.

1.4. Bu Qaydalar ilə nəzərdə tutulan məlumat və sənədlər elektron poçt və ya faks vasitəsilə göndərilməklə bilavasitə alıcıya və ya alıcının göndərişlərin qəbulu üçün səlahiyyət verilmiş işçisinə təqdim edilməlidir.

1.5. Bu Qaydalarla nizama salınmayan məsələlər Daxili Reqlamentdə nəzərdə tutulmuş qaydada tənzimlənir. Bu Qaydalarla Daxili Reqlamentin hər hansı müddəası arasında uyğunsuzluq olarsa, Daxili Reqlamentin müddəaları tətbiq olunur.

2-ci fəsil
Müxbirlərin və agentlərin təyin edilməsi şərtləri

2. Azərbaycan Respublikasında müxbirlərin təyin edilməsi

2.1 Azərbaycan Respublikasında müxbir dedikdə, məsuliyyəti Yaşıl Kart sistemi çərçivəsində sığortalanmış xarici nəqliyyat vasitələrinin iştirakı ilə Azərbaycanda baş verən yol-nəqliyyat hadisələri üzrə tələblərin tənzimlənməsini həyata keçirmək məqsədilə, Yaşıl Kart sisteminə daxil olan xarici ölkələrin Yaşıl Kart bürolarının üzvləri olan sığorta şirkətləri (bundan sonra – xarici sığortaçılar) tərəfindən təyin edilən və Büro tərəfindən verilmiş səlahiyyətlər əsasında fəaliyyət göstərən hüquqi şəxs(lər) başa düşülür.

2.2 Daxili Reqlamentin 4-cü maddəsinə əsasən, xarici sığortaçıların Azərbaycan Respublikası ərazisində müxbirlərinin təyin edilməsi ilə bağlı şərtlər bu Qaydalarla müəyyən edilir.

2.3 Yalnız Yaşıl Kart sığortaçıları Azərbaycan Respublikasında müxbir təyin oluna bilərlər.

2.4 Müxbir Azərbaycan Respublikasının işğal olunmuş əraziləri istisna olmaqla, Abşeron, Aran, Dağlıq Şirvan, Gəncə-Qazax, Quba-Xaçmaz, Lənkəran, Naxçıvan, Kəlbəcər-Laçın, Şəki-Zaqatala və Yuxarı Qarabağ iqtisadi rayonlarına daxil olan

rayon və (və ya) şəhərlərdən ən azı birində tələblərin tənzimlənməsi üçün lazımi imkanları olan tənzimləmə xidmətinə malik olmalıdır.

2.5 Hər bir xarici sığortaçı Azərbaycan Respublikası ərazisində yalnız bir müxbir təyin edə bilər.

2.6 Azərbaycan Respublikasında müxbirlərin təyin edilməsi müxbir təyin etmək istəyən xarici sığortaçının üzv olduğu Yaşıl Kart Bürosunun rəhbərinin müraciətinə əsasən aşağıdakılar nəzərə alınmaqla həyata keçirilir:

Xarici ölkənin Yaşıl Kart Bürosundan müxbirin təyinatı barədə müraciət daxil olduqda (müraciətə müxbirliyə namizədin razılığını təsdiq edən sənəd (bəyanat) və ya xarici sığortaçının müxbirlə qarşılıqlı münasibətlərini müəyyən edən müqavilə (müxbir münasibətləri haqqında müqavilə) əlavə edilməlidir), Büro müxbirliyə namizədi müvafiq müraciətin daxil olması barədə məlumatlandırır və onun bu Qaydalar ilə müəyyən edilmiş tələblərə uyğunluğunu araşdırır.

2.7 Müxbir münasibətləri haqqında müqavilə aşağıdakı mühüm şərtləri özündə əks etdirməlidir:

2.7.1 müxbirin, hadisənin baş verdiyi ölkənin ərazisində qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş müddət ərzində zərərçəkənlərə ödəniş vermək öhdəliyi, bu öhdəliyin icra olunmaması nəticəsində vurulmuş zərər məbləğindən az olmayan həddə məsuliyyət daşıması;

2.7.2 müxbirin, zərərin məbləğinin ilkin qiymətləndirilməsinin nəticəsi və qiymətləndirmənin nəticəsinin dəyişdirilməsi (dəqiqləşdirilməsi) barədə məlumatı, qiymətləndirmənin aparıldığı vaxtdan üç iş günü ərzində xarici sığortaçıya və ya xarici ölkənin Yaşıl Kart Bürosuna göndərməsi;

2.8 Müxbirliyə namizəd bu Qaydaların 2.6-cı bəndində göstərilən qaydada məlumatlandırıldığı tarixdən ən geci yeddi iş günü ərzində Büroya aşağıda qeyd olunan sənəd və məlumatları təqdim edir:

2.8.1 Müxbirin təyinatı barədə müraciətdə göstərilmiş xarici sığortaçının rəsmiləşdirdiyi Yaşıl Kart müqavilələri üzrə tələblərin tənzimlənməsi zamanı bu Qaydalarla və Daxili Reqlamentlə müəyyən edilmiş tələblərə riayət edəcəyi barədə yazılı öhdəlik;

2.8.2 Azərbaycan Respublikasının iqtisadi rayonlarında mövcud olan tənzimləmə xidmətləri barədə məlumatlar (adı, yerləşdiyi yerin tam ünvanı, Büro və zərərçəkənlərin əlaqə saxlamaları üçün nəzərdə tutulan telefon nömrələri və elektron poçt ünvan(lar)ı).

2.9 Büro müxbirliyə namizədin fəaliyyətinin monitorinqini aparmaq hüququna malikdir.

2.10 Müxbirliyə namizədin bu Qaydalarla müəyyən edilmiş tələblərə uyğunluğunun araşdırılması üçün Büro tərəfindən müxbirliyə namizəddən əlavə məlumatlar və sənədlər tələb oluna bilər.

2.11 Büro aşağıdakı hallarda müxbirin təyinatından imtina etmək hüququna malikdir:

2.11.1 müxbirliyə namizəd Azərbaycan Respublikasında müxbirlər üçün müəyyən edilmiş tələblərə uyğun olmadıqda;

2.11.2 müxbirliyə namizəd bu Qaydalarda nəzərdə tutulmuş məlumatları və ya sənədləri təqdim etmədikdə;

2.11.3 müxbirliyə namizədin Büro qarşısında borcu olduqda və ya müxbirliyə namizəd digər xarici sığortaçılara münasibətdə müxbir kimi öz öhdəliklərini yerinə yetirmədikdə;

2.11.4 müxbirin təyinatı barədə müraciətdə göstərilən xarici sığortaçının əvvəl təyin edilmiş müxbir qarşısında tələblərin tənzimlənməsi üzrə xərclərin və ya tənzimləməyə görə haqların ödənilməsi üzrə borcu olduqda.

2.12 Azərbaycan Respublikasında müxbirin təyin edilməsi barədə müraciətə cavab, müvafiq müraciətin alındığı vaxtdan üç ay ərzində göndərilməlidir. Bu Qaydaların 2.8-ci bəndində göstərilən məlumat və sənədlərin alınması və ya müxbirliyə namizədin fəaliyyətinin monitorinqinin aparılması üçün tələb olunan vaxt bu müddətə daxildir. Müraciətə cavab üç ay ərzində göndərilməzsə, barəsində müraciət daxil olmuş şəxs müxbir qismində təsdiq edilmiş sayılır.

2.13 Azərbaycan Respublikasında müxbir bu Qaydaların 2.8.2-ci bəndində göstərilən məlumatlarda baş verən dəyişikliklər barədə həmin dəyişikliklərin baş verdiyi vaxtdan on iş günü ərzində Büronu yazılı şəkildə məlumatlandırmalıdır.

2.14 Azərbaycan Respublikasında müxbir təyin edilmiş şəxs müxbir qismində fəaliyyət göstərməkdən imtina etdikdə, fəaliyyətini dayandırmaq istədiyi tarixdən ən azı on iş günü əvvəl bu barədə Büronu yazılı şəkildə məlumatlandırmalıdır. Göstərilən məlumatı aldıqda, Büro müxbirin səlahiyyətlərinə xitam verir.

3. Xaricdə müxbirlərin təyin edilməsi

3.1 Yaşıl Kart sığortaçısı xaricdə baş vermiş hadisələr üzrə tələblərin tənzimlənməsini Büroya həvalə etdiyi, yəni Büro tərəfindən təsdiq edilmiş "Yaşıl Kart təkrarsığorta daxılının təşkili və işləmə Qaydaları"na uyğun olaraq formalaşdırılan Yaşıl Kart Təkrarsığorta Daxılına qoşulduğu halda, həmin sığortaçının rəsmiləşdirdiyi Yaşıl Kart müqavilələri üzrə xarici ölkələrdə baş vermiş hadisələr üzrə tələblərin tənzimlənməsi Büronun xaricdə təyin etdiyi müxbirlər vasitəsilə həyata keçirilir.

3.2 Xaricdə baş vermiş hadisələr üzrə tələblərin tənzimlənməsini Büroya həvalə etməyən, yəni Yaşıl Kart Təkrarsığorta Daxılına qoşulmayan Yaşıl Kart sığortaçısının rəsmiləşdirdiyi Yaşıl Kart müqavilələri üzrə xarici ölkələrdə baş vermiş hadisələr üzrə tələblərin tənzimlənməsi birbaşa həmin sığortaçının xaricdə təyin etdiyi müxbir vasitəsilə Daxili Reqlamentdə müəyyən olunmuş qaydada həyata keçirilir.

3.3 Xaricdə müxbir təyin edilmədiyi halda, tələblərin tənzimlənməsi hadisənin baş verdiyi ölkənin Yaşıl Kart Bürosu tərəfindən aparılır.

3.4 Büronun və ya Yaşıl Kart sığortaçısının xaricdə müxbir(lər)inin təyin edilməsi aşağıdakı qaydada həyata keçirilir:

3.4.1 Yaşıl Kart sığortaçısı və ya Büro xarici ölkə ərazisində baş vermiş hadisələr üzrə tələblərin tənzimlənməsi üçün xarici ölkədə qüvvədə olan qanunvericiliyə uyğun olaraq həmin ölkə ərazisində tələblərin tənzimlənməsi fəaliyyəti ilə məşğul olmaq hüququna malik olan şəxslə öz seçimi əsasında müxbir münasibətləri haqqında müqavilə bağlayır və ya müxbir təyin etmək istədiyi şəxsin razılığını təsdiq edən sənəd (bəyanat) alır. Büro, müxbir münasibətləri haqda müqaviləni xarici ölkə ərazisində baş vermiş hadisələr üzrə tələblərin tənzimlənməsini Büroya həvalə etmiş (Yaşıl Kart təkrarsığorta Daxılına qoşulmuş) Yaşıl Kart sığortaçılarının

adından bağlayır. Müxbir münasibətləri haqqında müqavilə ingilis dilində tərtib olunur.

3.4.2 Müxbir münasibətləri haqqında müqavilə Yaşıl Kart sığortaçısı tərəfindən bağlandıqda, həmin müqavilə üç nüsxədə tərtib olunur və müqavilənin bir nüsxəsi Büroya təqdim olunur.

3.4.3 Yaşıl Kart Təkrarsığorta Daxılına qoşulmayan Yaşıl Kart sığortaçısı xaricdə müxbir təyin etmək üçün Büroya müxbirin təyin edilməsi barədə müəyyən edilmiş formada ərizə (ərizəyə müxbir münasibətləri haqqında müqavilənin bir nüsxəsi və ya müxbirliyə namizədin razılığını təsdiq edən sənəd (bəyanat) əlavə olunur) ilə müraciət edir (bu Qaydalara 1 nömrəli Əlavə).

3.4.4 Büro müvafiq ərizəni aldığı vaxtdan ən geci üç iş günü ərzində müvafiq xarici ölkənin Yaşıl Kart bürosuna müxbirin təyinatı barədə müraciət göndərir. Müraciətə müxbir münasibətləri haqqında müqavilənin surəti və ya müxbirliyə namizədin razılığını təsdiq edən sənəd (bəyanat) əlavə olunur. Bu müraciətin surəti, eyni zamanda, müxbirin təyin edilməsi barədə ərizə vermiş Yaşıl Kart sığortaçısına göndərilir.

3.5 Xaricdə müxbir Büro tərəfindən təyin edildiyi halda, bu Qaydaların 3.4.4-cü bəndinin birinci cümləsində nəzərdə tutulmuş müddəa tətbiq edilmir. Bu halda müxbir münasibətləri haqqında müqavilənin bağlandığı və ya müxbirliyə namizədin razılığını təsdiq edən sənədin (bəyanatın) alındığı vaxtdan üç iş günü ərzində həmin müqavilənin və ya bəyanatın surəti əlavə olunmaqla müvafiq ölkənin Yaşıl Kart bürosuna müxbirin təyinatı barədə müraciət göndərilir.

3.6 Xaricdə müxbir xarici ölkənin Yaşıl Kart Bürosu tərəfindən müəyyən edilən və ya bu Qaydaların 3.5-ci bəndində göstərilən müraciətə cavab verildiyi tarixdən, cavab verilmədikdə isə müxbirin təyinatı barədə müraciətin xarici ölkənin Yaşıl Kart Bürosu tərəfindən alındığı vaxtdan üç ay bitdikdə təyin edilmiş sayılır.

3.7 Büro, xarici ölkənin Yaşıl Kart Bürosundan müxbirin təyin edilməsi haqqında müraciətə cavab aldığı andan (əgər cavabda başqa tarix müəyyən edilməyibsə) və ya cavab alınmadıqda, müvafiq müraciətin xarici ölkənin Yaşıl Kart Bürosu

tərəfindən alındığı vaxtdan üç ay sonra həmin müxbirin varlığını rəsmi olaraq tanıyır və bu barədə müraciət etmiş Yaşıl Kart sığortaçısını məlumatlandırır.

4. Müxbirlərlə bağlı digər şərtlər

4.1 Tələblərin tənzimlənməsinə görə haqlar müxbirlə onun təyin olunması barədə müraciət etmiş sığortaçı və ya Büro arasında Daxili Reqlamentdə nəzərdə tutulan limiti aşmamaq şərti ilə, qarşılıqlı razılıq əsasında müəyyən olunur. Büro hər hansı səbəbdən tələblərin tənzimlənməsini öz üzərinə götürdükdə, tələblərin tənzimlənməsinə görə müxbirlə xarici sığortaçı arasında razılığa gəlinmiş şərtlər tətbiq olunmur. Bu halda tələblərin tənzimlənməsinə görə haqlar Daxili Reqlamentin İzahedici Memorandumunun 5.5-ci maddəsində göstərilən qaydada hesablanır.

4.2 Büro Azərbaycanda təyin olunmuş müxbirin bu Qaydalara müvafiq olaraq öz öhdəliklərini yerinə yetirməkdə pozuntulara yol verdiyini, müxbirə qarşı şikayətlərin artdığını və yaxud müxbirlər üçün nəzərdə tutulmuş tələblərə cavab verə bilmədiyini müəyyən etdiyi hallarda öz təsdiqini geri götürə bilər.

4.3 Müxbirlər öz hüquq və səlahiyyətlərini digər şəxs(lərə) həvalə edə bilməzlər.

4.4 Müxbirlərin təsdiq olunması və onların təyinatından imtina şərtləri Büronun rəsmi internet səhifəsində dərc olunur.

5. Agentlərin təyin edilməsi şərtləri

5.1 Yaşıl Kart sistemi çərçivəsində Azərbaycan Respublikasının ərazisində baş verən hadisələr üzrə tələblərin tənzimlənməsi, hadisədə zərər vuran nəqliyyat vasitəsinin sahibinin məsuliyyətini sığortalamış xarici sığortaçının Azərbaycan Respublikasında müxbiri olmadığı halda, Büro və ya agent tərəfindən həyata keçirilir.

5.2 Yalnız Yaşıl Kart sığortaçıları agent ola bilərlər.

5.3 Agentin təyin edilməsi haqqında qərar Büronun Himayəçilər Şurası tərəfindən qəbul olunur.

5.4 Yaşıl Kart Sistemi çərçivəsində tələblərin tənzimlənməsi üçün agent, agentin tənzimləmə xidmətinin yerləşdiyi Azərbaycan Respublikasının şəhər və rayonları üzrə təyin edilir.

5.5 Yaşıl Kart sığortaçısı agent təyin edilməsi üçün Büroya müəyyən edilmiş formada müraciət edir (bu Qaydalara 2 nömrəli Əlavə). Müraciətdə aşağıdakı məlumatlar göstərilir:

5.5.1 tənzimləmə xidməti barədə məlumatlar (adı, yerləşdiyi yerin tam ünvanı, əlaqə nömrələri və elektron poçt ünvanları);

5.5.2 agent təyin olunduğu halda, Bürolar Şurasının Daxili Reqlamentinin, bu Qaydaların və Büronun digər daxili sənədlərinin tələblərinə riayət etmək öhdəliyi.

5.6 Büro agentin təyin edilməsi haqqında qərarının qəbul edildiyi tarixdən Yaşıl Kart sığortaçısını rəsmi olaraq agent kimi tanıyır və bu barədə dərhal agent təyin edilməsi üçün müraciət etmiş Yaşıl Kart sığortaçısını məlumatlandırır.

5.7 Agentin vəzifələri:

5.7.1 Bu Qaydalar, Daxili Reqlament və Azərbaycan Respublikasında qüvvədə olan icbari sığorta qanunvericiliyi ilə müəyyən edilmiş tələblərin tənzimlənməsi qaydasına riayət etmək;

5.7.2 maraqların toqquşması barədə dərhal Büronu məlumatlandırmaq və bu halda, Büronun göstərişinə əsasən zərərçəkənin tələbini və həmin tələblə bağlı sənədləri Büroya təhvil vermək;

5.7.3 tələbin aid olduğu Yaşıl Kart müqaviləsini rəsmiləşdirən xarici sığortaçını və zərurət olduqda, həmin sığortaçının üzv olduğu Yaşıl Kart Bürosunu aşağıdakılar barədə məlumatlandırmaq:

5.7.4 sığorta hadisəsi haqqında (tələbin alındığı vaxtdan ən geci üç iş günü ərzində);

5.7.5 zərərin ilkin və dəqiqləşdirilmiş məbləği haqqında (bu məlumatın alındığı vaxtdan ən geci üç iş günü ərzində);

5.7.6 Agent zərərin ilkin qiymətləndirilməsi aparılanadək tələbin aid olduğu Yaşıl Kart müqaviləsini rəsmiləşdirən xarici sığortaçıdan və ya xarici ölkədə tələblərin təzimlənməsi mərkəzləşdirilmiş qaydada həmin ölkənin Yaşıl Kart Bürosu

tərəfindən həyata keçirildiyi təqdirdə, xarici ölkənin Yaşıl Kart Bürosundan sığorta məbləğinin həcmini dəqiqləşdirməlidir.

5.8 Agent bu Qaydaların 5.5.1-ci bəndində göstərilmiş məlumatlarda baş vermiş dəyişikliklər barədə Büronu məlumatlandırmalıdır.

5.9 Daxili Reqlamentin İzahedici Memorandumunun 5.5-ci maddəsinə uyğun olaraq, agent tələblərin tənzimlənməsinə görə haqq almaq hüququna malikdir.

6. Tənzimləmə üzrə nümayəndələrlə bağlı əlavə tədbirlər

6.1 Büro tənzimləmə üzrə nümayəndələrin reyestrini aparır (bu Qaydalara 3 və 4 nömrəli Əlavələr).

6.2 Büro müxbir və agentlər tərəfindən bu Qaydaların, Büronun digər daxili sənədlərinin və müvafiq olaraq Büronun müxbir və ya agentlərin fəaliyyətini nizama salan qərarlarının pozulması hallarını aşkar edərsə, onların tələblərin tənzimlənməsi üzrə nümayəndə qismində fəaliyyətini göstərilən pozuntular aradan qaldırılanadək dayandırmaq hüququna malikdir. Yaşıl Kart sığortaçısının müxbir qismində fəaliyyətinin dayandırılması və ya bərpa edilməsi haqqında qərar Büronun icraçı direktoru tərəfindən, agent qismində fəaliyyətinin dayandırılması və ya bərpa edilməsi haqqında qərar isə Büronun Himayəçilər Şurası tərəfindən qəbul edilir.

3-cü fəsil

Tələblərin tənzimlənməsi

7. Azərbaycan Respublikası ərazisində tələblərin tənzimlənməsi

7.1 Xarici ölkədə qeydiyyatdan keçmiş və qüvvədə olan Yaşıl Karta malik avtonəqliyyat vasitəsi sahibinin Azərbaycan Respublikası ərazisində səbəb olduğu yol-nəqliyyat hadisəsi nəticəsində dəymiş zərərlə bağlı tələblərin tənzimlənməsi Daxili Reqlamentin və bu Qaydaların tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikasında qüvvədə olan icbari sığorta qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

7.2 Yaşıl Kart müqaviləsini təqdim etmiş nəqliyyat vasitəsinin sahibi tərəfindən yol-nəqliyyat hadisəsi nəticəsində zərər vurulması haqqında məlumat Büroya daxil olduqda, Büro bu məlumatı bir iş günü ərzində "Yaşıl Kart sistemi çərçivəsində sığorta hadisələrinin qeydiyyatı üzrə proqram təminatı" (bundan sonra – proqram təminatı) vasitəsilə qeydiyyata alır və zərər vuran nəqliyyat vasitəsinin sahibinin məsuliyyətini sığortalamış xarici sığortaçını və ya Daxili Reqlamentdə nəzərdə tutulan hallarda həmin sığortaçının üzv olduğu Yaşıl Kart Bürosunu məlumatlandırır.

7.3 Bu Qaydaların 7.2-ci bəndində qeyd olunan proqram təminatı hazır olanadək, sığorta hadisələri ilə bağlı məlumatların qeydiyyatı kağız daşıyıcılarda aparılır.

7.4 Zərər vurulması haqqında məlumat birbaşa müxbirə daxil olduqda, müxbir bu məlumatı Büroya bir iş günü ərzində bildirməlidir.

7.5 Məlumatın qeydiyyata alınması yol-nəqliyyat hadisəsinin baş verdiyi yer, hadisənin baş vermə tarixi, iştirakçıları, Yaşıl Kart müqaviləsinin təfərrüatları, habelə Yaşıl Kart müqaviləsini rəsmiləşdirmiş xarici sığortaçı barədə məlumatların informasiya sisteminə daxil edilməsindən ibarətdir.

7.6 Büro Daxili Reqamanetin 8-ci maddəsində göstərilən qaydada Yaşıl Kartın etibarli olub-olmamasının və tənzimləmə üzrə nümayəndənin müəyyən edilməsi üçün tədbirlər görür.

7.7 Tənzimləmə üzrə nümayəndənin müəyyən edilməsi üçün ilk növbədə Yaşıl Kart müqaviləsini rəsmiləşdirən xarici sığortaçının Azərbaycan Respublikasında müxbirinin olub-olmaması müəyyən edilir.

7.8 Xarici sığortaçının Azərbaycan Respublikasında müxbiri təyin olunduqda, Büro tələbin tənzimlənməsi üçün hadisə barədə bütün məlumatları həmin müxbirə göndərir.

7.9 Yaşıl Kart müqaviləsini rəsmiləşdirmiş xarici sığortaçının Azərbaycan Respublikasının ərazisində müxbiri təyin edilmədiyi yaxud belə müxbir barəsində bu Qaydaların 6.2-ci bəndinə uyğun qərar qəbul edildiyi halda, Yaşıl Kart müqavilələri üzrə tələblərin tənzimlənməsini Büro və ya agent xarici sığortaçının maraqlarından çıxış edərək həyata keçirir.

7.10 Büro hər bir konkret hal üzrə tələbin tənzimlənməsini agentə həvalə etməzdən əvvəl, həmin agent barədə məlumatları Yaşıl Kart müqaviləsini rəsmiləşdirən xarici sığortaçının üzv olduğu Yaşıl Kart Bürosuna göndərməlidir. Büro maraqların toqquşması müəyyən olunan hallarda, yalnız xarici ölkənin Yaşıl Kart Bürosu tərəfindən agentin təyin edilməsi ilə bağlı təsdiq aldıqdan sonra tələbin tənzimlənməsini agentə həvalə edə bilər, əks halda Daxili Reqlamentin 3.6-cı maddəsinə əsasən xarici ölkənin Yaşıl Kart Bürosu zərərin əvəzinin yalnız 50%-ni geri ödəmək hüququna malikdir.

7.11 Agentin Büronun məlumatı və təyinatı olmadan tələblərin tənzimlənməsini hadisə barədə məlumatı və sənədləri əldə etməklə birbaşa həyata keçirməsi qadağandır.

7.12 Büro tələblərin tənzimlənməsi üzrə nümayəndə, o cümlədən zərərin əvəzinin ödənilməsi haqqında tələbin irəli sürülməsi qaydası haqqında müvafiq məlumatları zərərçəkənə çatdırır.

7.13 Agent sığorta ödənişi haqqında tələbi aldığı gün maraqların toqquşmasının olub-olmadığını araşdırır. Maraqların toqquşmasını aşkar edən agent dərhal faksla və (və ya) elektron poçt vasitəsilə (greencard@isb.az) Büronu məlumatlandırmalıdır.

7.14 Maraqların toqquşması aşkar edildikdə, Büro xarici ölkənin Yaşıl Kart Bürosu ilə razılaşdırmaqla Himayəçilər Şurası tərəfindən təsdiq edilmiş növbəlilik üzrə barəsində maraqların toqquşması aşkar edilmiş agentdən sonrakı agenti tələblərin tənzimlənməsi üzrə nümayəndə qismində təyin edir. Yeni agent, habelə zərərin ödənilməsi haqqında tələbin irəli sürülmə qaydası haqqında müvafiq məlumatlar Büro tərəfindən zərərçəkənə çatdırılır.

7.15 Maraqların toqquşmasını aşkar etmiş agent digər agentin təyin edilməsi barədə məlumat aldığı vaxtdan üç iş günü ərzində icraatında olan tələbi, habelə tələbə əlavə edilmiş sənədləri və məlumatları Büroya təhvil verir. Büro həmin tələbi və tələblə bağlı materialları yeni təyin edilmiş agentə ötürür.

7.16 Büro hadisə barədə məlumatın qeydiyyata alındığı və ya tələblərin tənzimlənməsi üzrə nümayəndənin başqası ilə əvəz edildiyi vaxtdan ən geci bir iş günü ərzində informasiya sisteminə müvafiq məlumatları (dəyişiklikləri) daxil etməklə tənzimlənmə üzrə nümayəndəni bu barədə məlumatlandırır.

7.17 Sığorta ödənişi barədə yazılı tələb bu Qaydalara uyğun olaraq tələblərin tənzimlənməsi üzrə təyin edilmiş nümayəndə tərəfindən qəbul edilir.

7.18 Sığorta ödənişi barədə tələbin forması, habelə tələbə əlavə edilən sənədlərin və məlumatların siyahısı "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olmalıdır. Tələbi irəli sürən şəxs tənzimləmə üzrə nümayəndəyə iş üzrə zəruri olan hər hansı sənədi təqdim etmədiyi halda, tənzimləmə üzrə nümayəndə tələbi qəbul edərək çatışmayan sənədlərin təqdim edilməsini həmin şəxsdən tələb edir. Sığorta ödənişi tələb üzrə bütün zəruri sənədlərin təqdim edildiyi tarixdən yeddi iş günü ərzində ödənilməlidir.

7.19 Tənzimləmə üzrə nümayəndə sığorta ödənişi barədə tələbi aldığı vaxtdan ən geci bir iş günü ərzində informasiya sisteminə aşağıdakı məlumatları daxil edir:

7.19.1 yol-nəqliyyat hadisəsinin tarixi və yeri;

7.19.2 zərər vuran şəxsə dair məlumatlar (ad, soyad, əlaqə saxlanılması üçün telefon nömrələri və elektron poçt ünvanları);

7.19.3 zərər vuran nəqliyyat vasitəsi ilə bağlı Yaşıl kartın nömrəsi;

7.19.4 zərərçəkən şəxsə dair məlumatlar (ad, soyad, əlaqə saxlanılması üçün telefon və elektron poçt ünvanları);

7.19.5 sığorta ödənişi barədə tələbin tənzimləmə üzrə nümayəndə tərəfindən qəbul edilmə tarixi;

7.19.6 informasiya sisteminin elektron qaydada tələb etdiyi digər məlumatlar.

7.20 Sığorta ödənişinin həyata keçirilməsi ilə bağlı faydalanan şəxslə tənzimləmə üzrə nümayəndə arasındakı münasibətlərə icbari sığorta müqaviləsi üzrə faydalanan şəxs və sığortaçı arasındakı münasibətlər üzrə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş tələblər tətbiq olunur. Müvafiq tələblər bu münasibətlərin məzmunundan başqa hal irəli gəlmirsə, həmçinin aşağıdakılar nəzərə alınmaqla tətbiq edilir:

7.20.1 zərərlərin qiymətləndirilməsi Azərbaycanda nəqliyyat vasitələrinə dəyən zərərlərin qiymətləndirilməsi üçün istifadə olunan proqram təminatı vasitəsilə həyata keçirilməlidir ;

7.20.2 tənzimləmə üzrə nümayəndə zərərin ilkin qiymətləndirilməsi aparılanadək Yaşıl Kart müqaviləsini rəsmiləşdirən xarici sığortaçıya Azərbaycan Respublikasının icbari sığorta qanunvericiliyi ilə müəyyən edilmiş həddən artıq məbləğdə sığorta ödənişinin həyata keçirilməsinin mümkünlüyünün müəyyən edilməsi məqsədilə sorğu verməli və müvafiq sorğunu göndərməsi barədə zərərçəkəni məlumatlandırmalıdır. Sorğuya cavab sığorta ödənişinin verilməsi üçün müəyyən olunmuş vaxt ərzində alınmazsa, sığorta ödənişi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş müddətdə və məbləğdə həyata keçirilir.

7.21 Zərərçəkən şəxsə sığorta ödənişi verildikdən sonra xarici sığortaçıdan alınmış cavaba əsasən tənzimləmə üzrə nümayəndə həyata keçirilmiş sığorta ödənişi məbləğinin yenidən hesablanmasının mümkünlüyü barədə zərərçəkəni məlumatlandırır.

7.22 Tələbə baxılmasının nəticələri (sığorta ödənişinin həyata keçirilməsi və ya ödənişdən imtina edilməsi) barədə məlumatlar və sənədlər informasiya sisteminə daxil edilməlidir.

7.23 Azərbaycanda tələblərin tənzimlənməsi üzrə nümayəndənin tələblərin tənzimlənməsi ilə bağlı xərclərinin əvəzi, o cümlədən, tənzimləməyə görə haqq, tənzimlənmə müxbir tərəfindən həyata keçirildiyi halda, müxbir münasibətləri haqqında müqaviləyə və ya bəyanata, tənzimləmə agent tərəfindən həyata keçirildiyi halda, müvafiq olaraq müxbirin və ya agentin ödəniş tələbinə əsasən Yaşıl Kart müqaviləsini rəsmiləşdirmiş xarici sığortaçı və ya Daxili Reqlamentə müvafiq olaraq xarici ölkənin Yaşıl Kart bürosu tərəfindən ödənilir. Ödəniş tələbinə aşağıdakı sənədlər əlavə edilməlidir:

7.23.1 sığorta ödənişinin həyata keçirilməsini təsdiq edən sənəd;

7.23.2 tələblərin tənzimlənməsi zamanı yaranan digər xərcləri (məhkəmə, qiymətləndirmə xərcləri və s.) təsdiq edən sənədlər;

7.23.3 tənzimləməyə görə haqq (müxbir münasibətləri haqqında müqavilədə başqa qayda nəzərdə tutulmayıbsa).

7.24 Azərbaycanda tənzimləmə Büro tərəfindən həyata keçirilmiş olduqda, bu Qaydaların 7.23-cü bəndində göstərilən ödəniş tələbi (tələbin forması Bürolar

Şurasının internet səhifəsində yerləşdirilib) Büro tərəfindən xarici ölkənin Yaşıl Kart Bürosuna göndərilir.

7.25 Tənzimləmə üzrə nümayəndə bu Qaydaların 7.23-cü bəndində göstərilən ödəniş tələbini göndərdiyi vaxtdan iki ay müddətində xarici sığortaçıya eyni məqsədlə xatırlatma göndərməlidir.

7.26 Tənzimlənmə üzrə nümayəndənin Azərbaycanda tənzimləmə ilə bağlı xərclərinin əvəzi, agentə münasibətdə isə həmçinin tənzimləməyə görə haqq Daxili Reqlamentdə göstərilən müddətdə Yaşıl Kart müqaviləsini (əsli və ya saxta) rəsmiləşdirmiş xarici sığortaçı tərəfindən ödənilmədikdə, Büro tərəfindən ödənilir.

7.27 Tənzimlənmə üzrə nümayəndənin Azərbaycanda tənzimləmə ilə bağlı çəkdiyi xərclərin əvəzi xarici sığortaçı tərəfindən ödənilmədikdə, o, Büroya faks və ya elektron poçt vasitəsilə ərizə göndərir.

7.28 Büro tənzimləmə üzrə nümayəndədən bu Qaydaların 7.27-ci bəndində göstərilən ərizəni aldıqda, Daxili Reqlamentə müvafiq qaydada tənzimləmə üzrə xərcləri tənzimlənmə üzrə nümayəndəyə ödəyir.

7.29 Büroya ərizə göndərən tənzimlənmə üzrə nümayəndə digər şəxslərdən aldığı ödənişlər (haqlar) barədə dərhal Büronu məlumatlandırmalıdır.

7.30 Büro tənzimlənmə üzrə nümayəndədən tənzimləmə üzrə xərclərin ödənilməsi haqqında ərizəni aldıqda, tənzimləmə üzrə xərclərin əsaslı olduğunu yoxlamaq və sığorta ödənişi haqda qərar əsassız olduqda, tənzimləmə üzrə xərclərin ödənilməsindən tam və ya qismən imtina etmək hüququna malikdir. Büro tənzimləmə üzrə nümayəndənin xərclərinin və tənzimləməyə görə haqqın ödənilməsindən aşağıdakı hallarda imtina etmək hüququna malikdir:

7.30.1 Yaşıl Kartın etibarlılığının müəyyən olunması məqsədilə tənzimləmə üzrə nümayəndə tərəfindən bu Qaydaların 7.32-ci bəndi ilə nəzərdə tutulmuş qaydada müvafiq sorğu göndərilmədikdə;

7.30.2 Yaşıl Kartın saxta olması faktının xarici sığortaçı və ya xarici ölkənin Yaşıl Kart Bürosu tərəfindən tanınması halları istisna olmaqla, Yaşıl Kartın etibarsızlığı faktının müəyyən edilməsinə baxmayaraq, tənzimləmə üzrə nümayəndə tərəfindən sığorta ödənişi həyata keçirildikdə;

7.30.3 "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununa əsasən sığorta ödənişinin həyata keçirilməsi üçün əsas olmadıqda.

7.31 Yaşıl Kart müqaviləsini rəsmiləşdirən xarici sığortaçı müflis olduqda, fəaliyyəti dayandırıldıqda və ya ləğvetmə prosesinə başlanıldıqda, Azərbaycanda Büronun və ya agentin tələblərin tənzimlənməsi üzrə xərcləri,o cümlədən tənzimləməyə görə haqlar həmin sığortaçının üzv olduğu Yaşıl Kart Bürosu tərəfindən ödənilir.

7.32 Yaşıl kartların etibarsızlığı, saxta olması ilə bağlı məsələlər Daxili Reqlamentin 9-cu maddəsi ilə tənzimlənir.

7.33 Tənzimlənmə üzrə nümayəndə bu Qaydaların tələblərinə riayət etməməsinə görə Büro qarşısında məsuliyyət daşıyır.

8. Xaricdə baş vermiş hadisələr üzrə tələblərin tənzimlənməsi

8.1 Yaşıl Kart sığortaçısı tərəfindən rəsmiləşdirilən Yaşıl Karta malik nəqliyyat vasitəsinin sahibi tərəfindən Azərbaycan Respublikası istisna olmaqla, Yaşıl Kart sisteminə daxil olan istənilən ölkə ərazisində baş vermiş yol-nəqliyyat hadisəsi nəticəsində dəyən zərər(lər) ilə əlaqədar tələblərin tənzimlənməsi (xaricdə tənzimləmə) hadisənin baş verdiyi ölkənin sığorta qanunvericiliyinə, Yaşıl Kart sisteminin tələblərinə, habelə Büronun hadisənin baş verdiyi ölkənin Yaşıl Kart Bürosu ilə bağladığı sazişə uyğun olaraq həyata keçirilir.

8.2 Xaricdə tənzimləmə Yaşıl Kart müqavilələrini rəsmiləşdirən sığortaçı(lar) və ya Yaşıl Kart sisteminə daxil olan xarici ölkələrdə baş vermiş hadisələr üzrə tələblərin tənzimlənməsini Büroya həvalə etmiş, yəni Yaşıl Kart Təkrarsığorta Daxılına qoşulmuş Yaşıl Kart sığortaçılarının adından Büro tərəfindən xarici ölkənin ərazisində təyin olunan müxbir tərəfindən həyata keçirilir. Yaşıl Kart sığortaçısının və ya Büronun xaricdə müxbiri təyin olunmadığı halda, xaricdə tənzimləmə xarici ölkənin Yaşıl Kart Bürosu tərəfindən aparılır.

8.3 Büro müxbirlərə və tənzimləməni həyata keçirən digər şəxslərə Yaşıl kartlar üzrə tələblərin tənzimlənməsi üzrə xərclərin, həmçinin tənzimləməyə görə haqqın Yaşıl Kart sığortaçıları tərəfindən ödənilməsini təmin edir.

8.4 Daxıla qoşulmayan Yaşıl Kart sığortaçıları xaricdə tənzimləmə ilə bağlı məlumatları proqram təminatına daxil etməlidirlər.

8.5 Bu Qaydaların 8.4-cü bəndinə uyğun olaraq Büro ilə Daxıla qoşulmayan Yaşıl Kart sığortaçısı arasında proqram təminatı vasitəsilə aşağıdakı məlumatların mübadiləsi aparılır:

8.5.1 baş vermiş sığorta hadisəsi haqqında məlumatlar;

8.5.2 tənzimləməni həyata keçirən müxbir və ya digər şəxs haqqında məlumat;

8.5.3 zərərin məbləğinin ilkin qiymətləndirilməsi;

8.5.4 zərərin məbləğinin ilkin qiymətləndirilməsinin dəyişdirilməsi (dəqiqləşdirilməsi) haqqında məlumat;

8.5.5 tələbə baxılmasının nəticəsi (sığorta ödənişinin həyata keçirilməsi və ya sığorta ödənişindən imtina) barədə məlumat.

8.6 İlkin qiymətləndirməyə əsasən Yaşıl Kart Təkrarsığorta Daxılında iştirak etməyən Yaşıl Kart sığortaçısının rəsmiləşdirdiyi Yaşıl Kartlardan irəli gələn xaricdə baş vermiş hadisələr üzrə sığorta ödənişinin məbləğinin Büronun Yaşıl Kart sistemində iştirakla bağlı Bürolar Şurasına təqdim etdiyi təkrarsığorta müqaviləsində nəzərdə tutulmuş şəxsi tutumu aşa biləcəyi halda, sığorta hadisəsi haqqında məlumat göstərilən təkrarsığorta müqaviləsi üzrə təkrarsığorta brokerinə ötürülməsi üçün dərhal Büroya çatdırılır. Bu halda, Büro sığorta hadisəsinə münasibətdə əlavə məlumatlar tələb edə bilər. Yaşıl Kart sığortaçısı tələb olunan əlavə məlumatları Büroya təqdim etməlidir.

8.7 Yaşıl Kart sığortaçısı və ya xaricdə baş vermiş hadisələr üzrə tələblərin tənzimlənməsini Büroya həvalə etmiş, yəni Yaşıl Kart təkrarsığorta Daxılına qoşulmuş Yaşıl Kart sığortaçılarına münasibətdə Büro müxbirin tənzimləmə üzrə xərclərinin, o cümlədən tənzimləməyə görə haqqın ödənilməsi barədə tələbi, həmçinin müvafiq xərclərin (haqqın) ödənilməsi barədə məlumatları həmin tələbi aldığı və ya ödənişi həyata keçirdiyi vaxtdan ən geci üç iş günü ərzində infomasiya sisteminə daxil etməlidir.

8.8 Yaşıl Kart Təkrarsığorta Daxılında iştirak etməyən Yaşıl Kart sığortaçısı və ya Büro müvafiq tələbi aldığı tarixdən ən geci qırx beş gün ərzində xaricdə

tənzimləmə üzrə xərcləri, həmçinin tənzimləməyə görə haqqı ödəməlidir. Göstərilən ödənişin həyata keçirilməsi müvafiq tələbi göndərmiş şəxsin, tənzimləmə üzrə xərcləri təsdiq edən sənədləri təqdim etməsi ilə şərtləşdirilə bilməz.

8.9 Yaşıl Kart Təkrarsığorta Daxılında iştirak etməyən Yaşıl Kart sığortaçısı xaricdə tənzimləməyə görə xərclərin ödənilməsinin gecikdirilməsinə görə Bürolar Şurasının müəyyən etdiyi qaydada hesablanmış cərimələri ödəməlidir.

8.10 Yaşıl Kart Təkrarsığorta Daxılında iştirak etməyən Yaşıl Kart sığortaçısının Yaşıl Kartlarla bağlı yaranan öhdəliyi ilə əlaqədar Büro tərəfindən həyata keçirilən ödənişlər məbləğində həmin sığortçıya münasibətdə Büronun subroqasiya hüququ yaranır.

8.11 Büro Yaşıl Kart Təkrarsığorta Daxılında iştirak etməyən Yaşıl Kart sığortaçısı tərəfindən xaricdə tənzimləmə üzrə xərclərin, tənzimləməyə görə haqqın müəyyən olunmuş müddətdə ödənilməməsinə görə Bürolar Şurasının Daxili sənədlərinə müvafiq qaydada məsuliyyət daşıyır.

8.12 Büro, Yaşıl Kart sistemi çərçivəsində tələblərin tənzimlənməsi üzrə fəaliyyətində qüvvədə olan qanunvericiliyin, bu Qaydaların, o cümlədən Büronun təsdiq etdiyi digər Qayda və təlimatların, Himayəçilər Şurasının məcburi xarakter daşıyan qərarlarının hər hansı tələbinə riayət etməyən Yaşıl Kart sığortaçısı barəsində "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 102-ci maddəsinə uyğun olaraq təqdimat verilməsi məqsədilə sığorta nəzarəti orqanı qarşısında vəsatət qaldırır.

"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqının Himayəçilər Şurasının 25 dekabr 2015-ci il tarixli iclasında təsdiq edilmiş (Protokol № 06, Əlavə № 02) "Yaşıl Kart" beynəlxalq sığorta sistemi çərçivəsində tələblərin tənzimlənməsi Qaydaları"na Əlavə № 01

Xaricdə müxbirin təyin edilməsi üçün

ƏRİZƏ

_____ Azərbaycan Respublikasında qeydiyyatdan
(sığorta şirkətinin adı)

keçmiş və sahibinin mülki məsuliyyəti _____
(sığorta şirkətinin adı)

tərəfindən sığortalanmış avtonəqliyyat vasitələrinin xaricdə istifadəsi nəticəsində dəyən zərərlərin tənzimlənməsi və sığorta ödənişinin həyata keçirilməsi məqsədilə _____ ərazisində
(Yaşıl Kart sisteminə daxil olan xarici ölkənin adı)

_____
(xarici ölkə ərazisində baş vermiş hadisələr üzrə tələblərin tənzimlənməsi üçün qüvvədə olan qanunvericiliyə uyğun olaraq həmin ölkə ərazisində tələblərin tənzimlənməsi fəaliyyəti ilə məşğul olmaq hüququna malik olan şəxsin adı)

müxbir qismində təyin edilməsi üçün _____ na
(xarici ölkənin Yaşıl Kart Bürosunun adı)

sorğunun göndərilməsini Sizdən xahiş edir.

"Yaşıl Kart beynəlxalq sığorta sistemi çərçivəsində tələblərin tənzimlənməsi Qaydaları"nın tələbinə uyğun olaraq

_____
(xarici ölkə ərazisində baş vermiş hadisələr üzrə tələblərin tənzimlənməsi üçün qüvvədə olan qanunvericiliyə uyğun olaraq həmin ölkə ərazisində tələblərin tənzimlənməsi fəaliyyəti ilə məşğul olmaq hüququna malik olan şəxsin adı)

razılığını təsdiq edən sənəd və ya müxbir münasibətləri haqqında müqavilə əlavə olunur.
(lazım olanın altından xətt çəkilməli)

_____ _____ _____
(sığorta şirkətinin adı) (imza) (rəhbərin adı/soyadı)

"__"_____20__il

"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqının Himayəçilər Şurasının 25 dekabr 2015-ci il tarixli iclasında təsdiq edilmiş (Protokol № 06, Əlavə № 02) "Yaşıl Kart beynəlxalq sığorta sistemi çərçivəsində tələblərin tənzimlənməsi Qaydaları"na Əlavə № 02

Yaşıl Kart sistemi çərçivəsində tələblərin tənzimlənməsi üzrə İcbari Sığorta Bürosunun agentinin təyin edilməsi üçün

Ə R İ Z Ə

Xarici ölkələrdə qeydiyyatdan keçmiş və qüvvədə olan Yaşıl Karta malik avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikasının ərazisində istifadəsi nəticəsində dəyən zərərlərin İcbari Sığorta Bürosunun adından tənzimlənməsi və belə zərərlərə görə sığorta ödənişlərinin həyata keçirilməsi məqsədilə İcbari Sığorta Bürosunun agenti qismində

_____ təyin edilməsini Sizdən xahiş edirik.
(sığorta şirkətinin adı)

"Yaşıl Kart beynəlxalq sığorta sistemi çərçivəsində tələblərin tənzimlənməsi Qaydaları"nın tələblərinə uyğun olaraq _____ -nin
(sığorta şirkətinin adı)
Azərbaycan Respublikasının iqtisadi rayonlarında mövcud olan tənzimləmə xidmətləri barədə məlumat və xarici sığortaçı(lar) tərəfindən rəsmiləşdirilən Yaşıl Kart müqavilələri üzrə tələblərin tənzimlənməsi zamanı Bürolar Şurasının Daxili Reqlamentinin şərtləri nəzərə alınmaqla yerli qanunvericilikdə müəyyən edilmiş tələblərə riayət ediləcəyi barədə yazılı öhdəlik əlavə edilir.

_____ _____ _____
(sığorta şirkətinin adı) (imza) (rəhbərin adı/soyadı)

"__"_____20__il

"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqının Himayəçilər Şurasının 25 dekabr 2015-ci il tarixli iclasında təsdiq edilmiş (Protokol № 06, Əlavə № 02) "Yaşıl Kart beynəlxalq sığorta sistemi çərçivəsində tələblərin tənzimlənməsi Qaydaları"na Əlavə № 03

Yaşıl Kart sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan müxbirlərin

REYESTRİ

Sıra sayı	Müxbirin adı	Müxbirin təyin olunma tarixi	Təyin edən xarici ölkə	Təyin edən xarici sığorta şirkəti	Müxbirə münasibətdə sanksiya və digər tədbirlərin tətbiqi barədə məlumat	Müxbirin səlahiyyətlərinə xitam veilmə tarixi / səbəbi	Qeyd
	2	*3*	*4*	*5*	*6*	*7*	*8*

"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqının Himayəçilər Şurasının 25 dekabr 2015-ci il tarixli iclasında təsdiq edilmiş (Protokol № 06, Əlavə № 02) "Yaşıl Kart beynəlxalq sığorta sistemi çərçivəsində tələblərin tənzimlənməsi Qaydaları"na Əlavə № 04

Yaşıl Kart sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan agentlərin

REYESTRİ

Sıra sayı	Agentin adı	Agentin təyin olunma tarixi	Agentin fəaliyyət göstərdiyi ərazi və tam ünvanı	Agentə münasibətdə sanksiya və digər tədbirlərin tətbiqi barədə məlumat	Agentin səlahiyyətlərinə xitam verilmə tarixi / səbəbi	Qeyd
	2	*3*		*4*	*5*	*6*